# “Böyük Qayıdış bu gün başlayır”

***Hazırda düşməndən azad edilən ərazilərimizdə geniş miqyasda tikinti, bərpa-quruculuq işləri aparılır. Azərbaycanın 30 ilə yaxın bir dövr ərzində işğal altında qalan torpaqlarında indi bir coşğunluq yaşanır, yeni layihələrin icrasına start verilir. Hər bir keçmiş məcburi köçkün məskunlaşma gününü həsrətlə gözləyir.***

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın aprelin 26-da Cəbrayıl və Zəngilana səfərini televiziya ilə izləyərkən, adları çəkilən rayonlarda bütün bu ovqatın, sevincin şahidi olduq. Dövlətimizin başçısı Zəngilan rayonunun Ağalı kəndində “Ağıllı kənd”in təməlqoyma mərasimində sakinlərlə görüşündə “Böyük qayıdış bu gün başlayır” sözləri isə ermənilərin xarabalığa çevirdikləri torpaqların tezliklə gülüstana çevriləcəyi əminliyi qəlbimizdə fərəh hissi doğurdu. Dövlət başçımızın Cəbrayıl rayonunun girişində “Cəbrayıla xoş gəlmişsiniz!” sözləri yazılmış lövhənin qarşısında söylədiyi fikirlər bu inam və ümidi daha da gücləndirdi: ”Bunun paslanmış görüntüləri artıq mətbuatda da var. Ona görə tarixi ədaləti bərpa edərək, Cəbrayıl rayonunun girişində yerləşən bu “Xoş gəlmişsiniz!” lövhəsini, abidəni biz yenidən bərpa etdik. Azad edilmiş bütün torpaqları bərpa edəcəyik, bütün şəhərləri, kəndləri bərpa edəcəyik”.

Burada bir məsələni də qeyd etmək istərdik. Azad edilən, yağı tapdağından təmizlənən ərazilərimiz bundan sonra ordumuz tərəfindən, necə deyərlər, göz bəbəyi kimi qorunacaq. Nə vaxtsa, düşmən baş qaldırıb, işğal barədə düşünərsə, şübhəsiz ki, dəmir yumruq işə düşəcək. Buna görə də dövlət sərhədlərimizin ciddi şəkildə qorunmasına, möhkəmlənməsinə xüsusi önəm verilir. Prezident İlham Əliyev Cəbrayıl rayonunda Dövlət Sərhəd Xidmətinin hərbi hissəsinin açılış mərasimindəki çıxışında bununla bağlı dedi: “Ancaq əfsuslar olsun ki, Ermənistanda baş qaldıran revanşist qüvvələr yenə də bizə qarşı ittihamlarla çıxış edərək, bizə qarşı ərazi iddiası irəli sürürlər. Onlara, bax, buradan xəbərdarlıq etmək istəyirəm ki, bu çirkin əməllərdən əl çəksinlər, yoxsa onların axırı pis olacaq. Biz Vətən müharibəsi dövründə kimin kim olduğunu göstərdik. Dəmir yumruq düşmənin başını əzdi. Bu yaxınlarda Azərbaycan-Ermənistan sərhədinin Zəngilan istiqamətində bizim sərhədçilərimizə qarşı edilən hərbi təxribat sonuncu belə cəhd olmalıdır. Biz təmkinlik göstərərək bu təxribata cavab vermədik. Amma bu, sonuncu xəbərdarlıqdır...”.

Burada dövlətimizin başçısına verilən məlumatdan da aydın oldu ki, ölkə rəhbərinin göstərişlərinə əsasən, düşməndən təmizlənən ərazilərdə tikinti-təmir işləri sürətlə aparılır. Yeni hərbi hissələr yaradılır, hərbi infrastrukturun qurulması məsələsi diqqətdə saxlanılır. Bax, elə ölkə rəhbərinin açılışında iştirak etdiyi hərbi hissə də Prezidentin tapşırıqlarına əsasən, 5 min 339 kvadratmetr ərazidə yaradılıb. Dövlət Sərhəd Xidmətinin hərbi arsenalı müasir silahlarla daha da zənginləşdirilib və silahlanmaya yeni pilotsuz uçuş aparatları da daxil edilib.

Yeri gəlmişkən, müharibənin getdiyi günlərdə Dövlət Sərhəd Xidmətinin əsgər və zabitləri erməni işğalçılarına qarşı qəhrəmanlıqla döyüşüb, pilotsuz uçuş aparatlarının – haropların tətbiqi ilə çəkilişlər aparıblar. Ermənilər Horadiz kəndi istiqamətində əks-hücum həmləsi etmək niyyətində olduqları zaman bu haroplar tərəfindən 2 saat ərzində düşmənin 14 tankı məhv edilib, təqribən 10-12 tankı isə qoyub qaçıblar.

Mərasimdə dövlətimizin başçısına məlumat verildi ki, yeni hərbi hissədə xidməti yüksək səviyyədə aparmaq üçün bütün şərait yaradılıb. Qırx dörd günlük Vətən müharibəsi zamanı Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməklə, eyni zamanda, dövlət sərhədinin bərpası kimi çox mühüm bir missiyanı icra edib. Silahlı Qüvvələrimizin tərkib hissəsi kimi Dövlət Sərhəd Xidmətinin şəxsi heyəti də yüksək peşəkarlıqla düşmənə sarsıdıcı zərbələr endirib və onu torpaqlarımızdan qovub.

***(ardl 3-cü səhifədə)***




*Bu gün burada təməl daşını qoyduğum hava limanı dövlətimizin gücünü göstərir. Bir qədər bundan aralıda yeni Horadiz-Zəngilan avtomagistral yolunun təməli də qoyulacaq. Mövcud yola paralel olan 4-6 zolaqlı bu yol geniş imkanlar açacaq. Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək üçün bu layihələrin çox böyük əhəmiyyəti vardır.*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# "Böyük Qayıdış bu gün başlayır"

*(əvvəli 1-ci səhifədə)*

Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları ilə görüşündəki çıxışında adı çəkilən hərbi xidmətin səmərəli döyüş fəaliyyəti barədə ətraflı bəhs etdi: "Vətən müharibəsi dövründə Azərbaycan-İran sərhədi tam bərpa edilib, işğal altında olmuş 132 kilometr sərhəd bərpa edilibdir. Müharibədən dərhal sonra sərhəd boyunca bütün lazımi istehkam, mühafizə işləri görülməyə başlamışdır. Bu hərbi hissənin fəaliyyətə başlaması bunun bariz nümunəsidir. Bütün sərhəd boyunca - həm Azərbaycan-İran, həm Azərbaycan-Ermənistan sərhədləri boyunca lazımi işlər aparılır.

Azərbaycan-İran sərhədi dostluq sərhədidir. Bu sərhədin qorunması Azərbaycan-İran əlaqələrinin inkişafı üçün də çox böyük önəm daşıyır. Bizim İran İslam Respublikası ilə digər istiqamətlərdə sərhədimiz var və bu, sözün əsl mənasında, dostluq, əməkdaşlıq sərhədidir. Hər iki ölkənin sərhəddən keçən vətəndaşları bundan faydalanırlar. Eyni zamanda, ildən-ilə artan yüklərin həcmi Azərbaycan-İran əlaqələrinin inkişafından xəbər verir".

Prezident İlham Əliyev çıxışında daha sonra bu hərbi hissəyə yaxın məsafədə yerləşən Xudafərin körpüsünün Azərbaycan-İran dostluğunun rəmzi olduğunu, bu tarixi abidənin Müstəqillik Günündə - keçən il oktyabrın 18-də düşməndən azad edildiyini, bu əməliyyatda sərhədçilərin xüsusi rol oynadıqlarını vurğuladı. Ölkə rəhbəri, eyni zamanda, Azadlıq mübarizəmizin məhz bu istiqamətdən başladığını, bu ərazidə şiddətli döyüşlər getdiyini, hər bir kənd uğrunda qanlı savaş aparıldığını, şəhidlər verildiyini xatırlatdı və Vətən müharibəsinin 44 gündən sonra Ordumuzun, Silahlı Qüvvələrimizin qələbəsi ilə nəticələndiyini bildirdi: "Allah bütün şəhidlərimizə rəhmət eləsin, onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaqdır. İtkilərə baxmayaraq, biz hər gün irəli gedirdik. 44 günlük müharibə dövründə bir gün belə geriyə addım atmamışıq. 44 gün ərzində hər bir gün Zəfər günü idi. 44 gün ərzində Ermənistanın bütün cəhdlərinə baxmayaraq, bir dənə də uğurlu əməliyyat keçirə bilməmişlər. Bax, bu istiqamətdə onlar əks-hücum əməliyyatı planlaşdırmışdılar və bunu həyata keçirməyə başlamışdılar. Amma bu, onların sonunun başlanğıcı olmuşdur. Çünki həmin əks-hücum əməliyyatı Azərbaycan Silahlı Qüvvələri tərəfindən tamamilə darmadağın edilmişdir, düşmən böyük sayda itki vermişdir və düşmənin onlarla texnikası məhv edilmişdir. Biz məhz bu istiqamətdən – Füzuli-Cəbrayıl istiqamətindən bir çox müdafiə xətlərini keçərək azadlığa yol açmışdıq".

Dövlətimizin başçısı çıxışında da bu gün müzəffər Azərbaycan Ordusu tərəfindən qarşıda duran bütün vəzifələrin uğurla yerinə yetirildiyini, eyni zamanda, sərhədçilərimizin hazırda işğaldan azad edilən ərazilərdə Azərbaycan-Ermənistan sərhədini də qoruduqlarını vurğulayaraq, sərhəd boyunca bütün lazımi infrastruktur işlərinin aparıldığını, bütün texnikanın səfərbər edildiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva daha sonra Zəngilan rayonunun birinci Ağalı kəndində olarkən, məlumat verildi ki, burada artıq müasir texnologiyalara əsaslanan quruculuq konsepsiyası əsasında intensiv işlərə başlanılıb, mobilizasiya edilib. İlkin söküntü işləri aparılıb. İşğaldan əvvəl ərazidə 30-a yaxın ev olub. Hazırda kəndarası yollar çəkilir. Yaşayış məntəqəsi daxilində də bu işlər görülür. Yanidənqurmada 110-a yaxın işçi çalışır. İşlər intensiv xarakter alanda isə onların sayının təqribən 600-700-ə yaxın olacağı gözlənilir.

Kənd təsərrüfatı naziri İnam Kərimov dövlətimizin başçısına və birinci xanıma məlumat verdi ki, birinci "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edir. Layihənin icrası, əsasən, 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələridir. Ərazidə, ilk olaraq, tam izolyasiya olunmuş və innovativ tikinti materiallarından istifadə edilməklə 200 fərdi evin tikintisi nəzərdə tutulub. Evdaxili mühəndis kommunikasiya, isitmə sistemləri də "ağıllı texnologiyalar" əsasında qurulacaq. Bu kəndlərdə müasir məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri inşa olunacaq, turizm infrastrukturu formalaşdırılacaq. Bütün yaşayış evləri, sosial obyektlər, inzibati və ictimai iaşə binaları, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesi alternativ enerji mənbələri ilə təmin ediləcək. Layihənin icrasında Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri də iştirak edəcəklər.

Dövlətimizin başçısı birinci Ağalı kəndində xarici şirkət nümayəndələri ilə də videoformatda söhbət etdi. Onlar dövlətimizin başçısına bu "Ağıllı kənd"də reallaşdırılacaq layihələr barədə, eləcə də kəndin bütün daxili elektrik enerjisi ehtiyacını ödəyəcək "Arximed" qurğusu və "Qiqabit AirPON" texnologiyası, süd ferması, "açar təslimi" layihələri barədə ətraflı məlumatlar verdilər.

Sonra dövlətimizin başçısı Zəngilan rayonunun sakinləri ilə görüşdü. Bu görüş zamanı diqqətçəkən bir məqamı diqqətə çatdırmaq istərdik. Belə ki, Prezident İlham Əliyevin keçmiş məcburi köçkünlərlə səmimi söhbətlərindən aydın oldu ki, Zəngilanda bu cür "ağıllı kəndlər" yaradılmasa belə, onlar əvvəlki qaydada bərpa olunan yurd yerlərinə həvəslə, sevinc hissi ilə dönməyə hazırdırlar. Çünki hər bir azərbaycanlıda, xüsusilə doğma torpaqlarından illərlə didərgin düşən soydaşlarımızda Vətənə bağlılıq son dərəcə güclüdür. Gənclərin də belə duyğu ilə yaşamaları hamımızda iftixar, qürur hissi doğurur. Sevindirici haldır ki, qəlbində güclü Vətən sevgisi olan belə bir gənc nəsil tərbiyə edilib yetişdirilməsində Prezident İlham Əliyevin müstəsna xidmətləri danılmazdır. Çünki dövlətimizin başçısının vurğuladığı kimi, bu yerləri görməyən hər bir gənc böyüyəndən sonra doğma torpağına qayıtmaq, burada qurub-yaratmaq istəyi ilə tərbiyə olunub, boya-başa çatdırılıb.

Sonda xatırladaq ki, Prezident İlham Əliyevin Zəngilana səfəri çərçivəsində Beynəlxalq Hava Limanının, Zəngilan-Horadiz avtomobil yolunun təməlini qoyub.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***